# Qəlbləri fəth etmək istəyi...



**İstedad bulaq kimi haradan olsa qaynayıb üzə çıxır, özünü göstərir, diqqət çəkir. Əliyeva Röya Məhəmməd qızı da istedadlı bir musiqiçidir. Yaşı az olsa da, musiqi mədəniyyətimizdə yeni cığırlar açır.**

Röya Əliyeva 2005-ci il fevralın 25-də Bakı şəhərində doğulub. 2011-ci ildə Azərbaycan Milli Konservatoriyasının tərkibində İncəsənət Gimnaziyasına qəbul olub.

5 yaşından skripkaya böyük maraq göstərən Röya 2-ci sinifdən Gimnaziyanın kamera orkestrinin birinci skripka ifaçısıdır. 2019-cu ildə Azərbaycan Gənclər İttifaqının keçirdiyi "Arts Olimpia" beynəlxalq musiqi müsabiqəsində skripka üzrə solo və ansamblla 2-ci və 3-cü yerlərə layiq görülüb. 2020-ci ildə Rusiyada keçirilən "Beynəlxalq Mədəniyyət Müsabiqəsi" yarışmasında vokal ansamblı ilə Qran-pri mükafatı qazanıb. Elə həmin il Elm və Təhsil Nazirliyinin təşkilatçılığı ilə keçirilən "Üç Alov" beynəlxalq müsabiqəsində Gimnaziyanın vokal qrupu ilə növbəti dəfə Qran-pri mükafatına layiq görülüb. Röya Əliyeva 2020-ci ildə professor Tərlan Seyidovun təşkil etdiyi "School-Studio of Baku Music Academy-40" adı altında Akademik Xalq və Caz Musiqisi ifaçılarının ilk beynəlxalq müsabiqəsində 3-cü yeri tutaraq laureat adı qazanıb.

2020-ci il Röya üçün uğurlu olub. O, həmin il Rusiyada keçirilən Art Planet beynəlxalq incəsənət müsabiqəsində Gimnaziyanın vokal ansamblı ilə 1-ci yerə layiq görülüb. Beynəlxalq müsabiqələrlə bərabər, Xorvatiyanın, Norveçin və bir sıra xarici dövlətlərin Azərbaycandakı səfirliklərində keçirilən tədbirlərdə fəal iştirak edib.

Röya Əliyeva həm də skripka üzrə onlayn keçirilən bir sıra beynəlxalq müsabiqələrin iştirakçısı və qalibi olub.

Söhbət zamanı Röya skripkanın onun həyatının mənası olduğunu dedi. Söylədiklərindən məlum oldu ki, onun zəngin mənəvi dünyasında Azərbaycan klassik musiqisi ilə modern dünya musiqisi vəhdət təşkil edir. Röya bu alətdəki gözəl ifaları ilə musiqini duyanlara onun fəlsəfəsini aşılamaq istəyir. İstəyir ki, skripkası ilə dinləyicilərin ürəyinə yol tapsın, qəlbinə cığır açsın. Təbiidir ki, Röyanın dinləyicilərin qəlbinə gedən yolu ecazkar səsi ilə insanları heyran edən skripkadan keçir.

Bu istedadlı qız hazırda Üzeyir bəy Hacıbəyli adına Bakı Musiqi Akademiyasında skripka ixtisası üzrə təhsil alır. İntellektual və yaradıcılıq potensialı yüksək olan bu istedadlı gənc həmçinin Bakı Musiqi Akademiyasının "Detaşe-Sabah" violinoçular ansamblının üzvüdür. 12 mart 2024-cü il tarixdə Xalq artisti, professor Zəhra Quliyevanın bədii rəhbərliyi ilə Beynəlxalq Muğam Mərkəzində ansamblın konserti keçirilib.

Gələcəkdə təhsilini beynəlxalq musiqi akademiyalarında davam etdirmək niyyətində olan Röyanın ən böyük arzusu Azərbaycan xalqını, dövlətini dünyada layiqincə təmsil etməkdir. Röya təbiətin harmoniyasından yaranan və bir anda qəlbləri fəth edən səsləri skripkanın dili ilə insanlara çatdırmaq, onların zövqünü oxşamaq, qəlbləri fəth etmək istəyir.

***V.MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 6 aprel, №71.-S.11.